

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 65 (21.217)

4 aprel 2015-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 3-də Bakı Ekspo Mərkəzində "AITF-2015" XIV Azərbaycan Beynəlxalq turizm və səyahətlər, "HOREX Caucasus-2015" IX Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar, həmçinin "CIBS-2015" II Xəzər Beynəlxalq kater və yaxtalar sərgiləri ilə tanış olublar.

Dövlətimizin başçısına və xanımına XIV Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisi barədə məlumat verildi.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Mədəniyyət və Turizm Nazirliyinin stendi ilə tanış oldular.

Naxçıvan stendi ilə tanışlıq zamanı məlumat verildi ki, muxtar respublika burada 6 otel kompleksi ilə təmsil olunur. 1995-2015-ci illərdə Naxçıvana gedən turistlərin sayı 20 dəfədən çox artıb. Turizm sahəsinə göstərilən dövlət qayğısı Bakı ilə yanaşı, regionlarda da müasir turizm infrastrukturunun yaradılması Azərbaycana gələn turistlərin sayının ildən-ilə artmasına səbəb olub. Ölkəmizin regionları da sərgidə geniş təmsil olunur. Burada bölgələrimizin turizm imkanları ilə bərabər, milli adətlərimiz, mətbəximiz, tarixi abidələrimiz barədə ətraflı məlumat verilir.

Sərgilərlə tanışlıqdan sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyevaya "Bakı-2015" Birinci Avropa Oyunlarının açılış mərasiminə biletlər təqdim olundu.

Dövlətimizin başçısı sərgilərin işinə uğurlar arzuladı.

## Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin keçirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2015-ci ilin avqust ayında görkəmli hərbi xadim, Azərbaycanın ilk milli atıcı diviziyasının komandiri Cəmşid Cəfərqulu oğlu Naxçıvanskinin anadan olmasının 120 illiyi tamam olur.

Cəmşid Naxçıvanski bacarıqlı sərkərdə kimi şərəfli döyüş yolu keçmiş və Azərbaycanın müstəqilliyi uğrunda aparılan mübarizələrdə göstərdiyi şücaətlərlə milli hərb sənəti tarixinə dəyərli töhfələr vermişdir. Onun ölkədə yüksək ixtisaslı hərbçi kadr hazırlığı sahəsində zəngin fəaliyyəti təqdirəlayiqdir. Cəmşid Naxçıvanski 1930-cu illərin ağır repressiyalarına məruz qalmış və totalitarizmin qurbanına çevrilmiş vətənpərvər şəxsiyyətlərdəndir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və gənc nəslin vətənə məhəbbət ruhunda tərbiyəsində əhəmiyyətini nəzərə alaraq, Azərbaycan xalqı qarşısında mühüm xidmətləri olan böyük sərkərdə Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin dövlət səviyyəsində keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə görkəmli hərbi xadim Cəmşid Naxçıvanskinin 120 illik yubileyinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 2 aprel 2015-ci il*

## Ərzurum Atatürk Universitetinin nümayəndə heyəti Səhiyyə Nazirliyində olub



***Türkiyə Respublikasının Ərzurum Atatürk Universitetinin rektoru, professor-doktor Hikmət Koçakın rəhbərlik etdiyi nümayəndə heyəti muxtar respublikamıza səfəri çərçivəsində Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində olub.***

Səhiyyə naziri Niyazi Novruzov iki qardaş ölkə arasında qarşılıqlı əlaqələrin hər bir sahədə olduğu kimi, səhiyyə sistemini də əhatə etdiyini bildirib. Son illər Azərbaycanda müasir dövrün tələblərinə cavab verən səhiyyə sisteminin yaradılmasını ölkə vətəndaşlarının sağlamlığının qorunmasına xidmət etdiyini bildirən nazir ölkəmizdə səhiyyə sahəsinə yüksək dövlət qayğısı göstərildiyini nəzərə çatdırıb.

Vurğulanıb ki, hazırda yeni səhiyyə müəssisələrinin kadr potensialının möhkəmləndirilməsi, tibb işçilərinin ixtisas səviyyələrinin artırılması üçün bu sahədə ardıcıl tədbirlər həyata keçirilir. Səhiyyə sahəsində Türkiyə ilə mövcud əlaqələrin ildən-ilə genişləndirilməsi muxtar respublika səhiyyəsi üçün mühüm əhəmiyyət kəsb edir. İxtisas səviyyəsinin artırılması məqsədilə həkimlər mütəmadi olaraq Bakı şəhərinə və Türkiyə Respublikasının müxtəlif klinika və xəstəxanalarına kurslara göndərilirlər.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi ilə Türkiyə Respublikasının tanınmış klinika və ali məktəbləri arasında uzunmüddətli qarşılıqlı təcrübə mübadilələrinə uyğun olaraq, kursa göndərilən həkim və orta tibb işçiləri müxtəlif ixtisaslar üzrə kurslar keçərək muxtar respublikada bu sahələrin inkişafına öz töhfələrini verirlər. Bu mübadilələr nəticəsində son illərdə 300-dən çox həkim və orta tibb işçisi Türkiyədə təkmilləşdirmə kursu keçib. Əhaliyə göstərilən tibbi xidməti daha da yaxşılaşdırmaq məqsədilə yaradılan əməkdaşlıq əlaqələri hər iki tərəf üçün səmərəli olan təcrübə mübadilələrinin davam etdirilməsində yeni mərhələyə yol açır.

Ərzurum Atatürk Universitetinin rektoru, professor-doktor Hikmət Koçak bildirib ki, 22 fakültə, 7 institut və 10-a yaxın yüksək məslək məktəbinin fəaliyyət göstərdiyi ali təhsil ocağında 150 mindən çox tələbə təhsil alır. Onların təhsili ilə 10 min nəfərlik heyət məşğul olur. Universitet bu gün Türkiyənin 184 ali təhsil müəssisəsi arasında ilk onluqda yer alır. Atatürk Universitetinin araşdırma xəstəxanası, sadəcə, vilayətin deyil, bütün bölgə əhalisinin sağlamlığı keşiyində dayanır. Universitetin beynəlxalq əlaqələrində Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi və Naxçıvan Dövlət Universitetinin özünəməxsus yeri vardır. Onlarla əməkdaşlığın inkişaf etdirilməsi bundan sonra da diqqət mərkəzində saxlanılacaq.

Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bildirib ki, Naxçıvan Dövlət Universiteti qardaş ölkənin 40-a yaxın ali təhsil ocağı ilə əməkdaşlıq edir. Bu əlaqələrin təməli 1992-ci ildə Ərzurum Atatürk Universiteti ilə əməkdaşlıq vasitəsilə qoyulub. Rektor vurğulayıb ki, 2011 və 2012-ci illərdə yenilənən universitetlərarası əməkdaşlıq müqaviləsi bundan sonra da elm və təhsilin inkişafına öz töhfəsini verəcək.

Ərzurum Atatürk Universitetinin araşdırma xəstəxanasının baş həkimi Necip Becit, Tibb fakültəsi sümük iliyi nəqli mərkəzinin müdiri, professor-doktor İlhami Kiki, orqan nəqli mərkəzi idarə heyətinin üzvü, dosent-doktor Gürkan Öztürk və başqaları 2000-ə yaxın tibbi personalın xidmət göstərdiyi 1400 çarpayılıq xəstəxanada yaradılan şəraitdən, burada aparılan müasir tibbi-diaqnostik müayinələrdən, sümük iliyi, orqan transplantasiyası mərkəzlərinin fəaliyyətindən danışıblar.

Sonra müzakirələr aparılıb, suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Əlahiddə Ümumqoşun Ordusu tərəfindən Naxçıvan Muxtar Respublikasının hava məkanının etibarlı qorunması işinin daim təkmilləşdirilməsi məqsədilə uğurlu tədbirlər görülür.*

## Muxtar respublikamızın hava məkanı etibarlı müdafiə edilir



Aprelin 2-də Əlahiddə Ümumqoşun Ordusunun hava hücumundan müdafiə hissə və bölmələrinin döyüş atışlı taktiki təlimlərinin keçirilməsinə hazırlıq məqsədilə təlim mərkəzində "OSA 1T" zenit raket komplekslərindən sınaq atışları keçirilib.

Əlahiddə Ümumqoşun Ordusunun zabiti, polkovnik Mirqiyas Rüstəmovun verdiyi məlumata görə, bu təlimdə uzun illərdir ki, Naxçıvan Muxtar Respublikasının hava məkanının müdafiəsində şərəfli hərbi xidmət yolu keçmiş zabitlər Rövşən Yusifov və Rizvan İsmayılov fəallıq göstərərək rəhbərlik etdikləri heyətlərlə birlikdə əsas məqsədə nail olunmasında peşəkarlıq nümayiş etdiriblər.

Sınaq atışlarında hədəfin nəinki yüksəklikdə, həm də Naxçıvan Muxtar Respublikasının coğrafi relyefinə uyğun ən çətin, ziddiyyətli dağlıq şəraitində aşağı hündürlükdə uçan hədəflərin aşkar olunaraq məhv edilməsi qarşıya məqsəd qoyulmuşdu. Atış zamanı hədəflər məhv edilib, qarşıya qoyulan əsas məqsədə nail olunub.

## Yeni taksi xidməti fəaliyyətə başlayıb

***Naxçıvan Muxtar Respublikasında müasir nəqliyyat sisteminin qurulması, nəqliyyat sektorunun səmərəli idarə olunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bu sahədə atılan addımlar geniş əhali kütləsinin gündəlik ehtiyaclarının ödənilməsində ən yüksək səviyyəyə çatmaq və regionun sürətlə inkişaf edən iqtisadiyyatının tələblərinə cavab verən müasir nəqliyyat infrastrukturu şəbəkəsi yaratmaq məqsədi daşıyır.***



Görülən işlərin davamı kimi, aprelin 3-də Naxçıvan şəhərində yeni taksi xidməti fəaliyyətə başlayıb. Belə ki, Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsinə məxsus 15 ədəd taksi gün ərzində sərnişinlərin xidmətində olacaq. Yalnız Naxçıvan şəhərində günün istənilən vaxtında (24 saat) "288" nömrəsinə zəng etməklə taksi sifariş edilə bilər. "Qaynar xətt"ə, həmçinin "Naxtel" və şəhər telefonları ilə pulsuz zəng etmək və xidmətdən yararlanmaq mümkündür.

Dünən xidmətə əlavə edilmiş 5 ədəd yeni "NAZ-Lifan-620" markalı taksi avtomobilinin sürücülərə təqdim edilməsi mərasimində iştirak edən Naxçıvan Muxtar Respublikasının Nəqliyyat naziri Mirsənani Seyidov bildirib ki, cəmiyyətin inkişafı, əhali sayının artması, öz növbəsində, nəqliyyat sektorunun da inkişafını tələb edir. Hazırda muxtar respublikada 485 ədəd taksi fəaliyyət göstərir. Naxçıvan şəhərində yeni fəaliyyətə başlayan taksi xidməti isə əhalinin rahatlığı, gündəlik həyatımızda vaxt itkisinin qarşısının alınması, həm də bu gündən fəaliyyətə başlayacaq 5 nəfərin işlə təmin olunması baxımından əhəmiyyətlidir. Taksilərə taksometrlərin quraşdırılması bu xidmət növündə şəffaflığa nail olunmasında, sürücü-sərnişin münasibətlərindəki anlaşılmazlıqların baş verməməsində mühüm rol oynayır.

Sonra yeni taksilərin açarları və "Naxçıvan Muxtar Respublikasında avtomobil nəqliyyatı ilə sərnişindaşımaları yerinə yetirən sürücülərin intizam qaydaları" ilə bağlı təlimatlar sürücülərə təqdim edilib.

**Xəbərlər şöbəsi**

*Gənc nəslin tərbiyəsi, yeniliklərdən məlumatı olan insan yetişdirilməsi bütün inkişaf mərhələlərində hər kəsi düşündürən qayğılardan olmuşdur. Məhz buna görə də dünyadakı inkişafın axarından kənarda qalmamaq üçün bütün yolların məhz təhsildən keçdiyini bilən aqillərimiz istənilən şərtlər daxilində təhsili özlərinin əsas qayğılarından biri olduğunu bəyan etmişlər. Dövr dəyişir və zaman pəncərəsindən geriyə dönüb baxarkən görürük ki, gün-güzəranımız, gələcəyimiz üçün edilən nə varsa, öz qiymətini sağlam, savadlı gənclərlə, onların uğurları ilə tapır. Belə olduqda millətin minillik tarixini, mədəniyyətini yaşadacaq insanların yetişdirilməsi üçün dövlət-xalq-məktəb əməkdaşlığının möhkəmləndirilməsi, əzbərçilikdən uzaq, analitik təfəkkürlü gənclərin hazırlığı günün aktual məsələsinə çevrilir.*

# "Hafizə məktəbi"nin məzunu olmaqdansa...

Hər dəfə məktəbə qədəm qoyan və gələcəyin müəllimi, həkimi, iqtisadçısı, jurnalisti, mühəndisi olacaq balaca uşaqlara baxanda yadıma bir Azərbaycan filmində Hatəmxan ağanın öz qardaşı oğlunu Firəngistana oxumağa göndərib elm, mərifət sahibi etmək arzusu düşür. Düşünürəm ki, o dövrdə – XIX əsrin ortalarında Azərbaycan cəmiyyətində mövcud olan gerilik və mütərəqqi meyillərdən uzaq bir mühitdə gənclərin elm sahibi olmaları üçün uzaq ölkələrə göndərilməsi olduqca təqdirolunası hadisə idi. Filmdə Azərbaycanın dilbər guşəsi Qarabağda bitən nadir bir çiçəyin məhz Şahbaz bəy deyil, ondan bir saat əvvəl bir fransız botanika alimi tərəfindən kəşf edildiyini seyr edəndə o zamanların təhsil və elm fədailərinin xalqın maarifçilik üçün etdiyi xidmətlərin dəyəri bir daha görünür. Hələ XIX əsrin sonu, XX əsrin əvvəllərində uşaqlara təhsil verməyə çalışan M.T.Sidqi kimi xalq müəllimlərimiz bu fədakarlıqlarına görə indi də təhsil qayğısı çəkən insanların ürəyində yaşayır, dövlətimiz tərəfindən xidmətləri yüksək qiymətləndirilir.

Zaman sürətlə irəliləyir və artıq Azərbaycan xalqı həyatın bütün sahələrində olduğu kimi, ana dilimizdə gənclərimizə verdiyi təhsillə dünyaya inteqrasiya olunmaq yolu tutmuşdur. Düzdür, indiki qloballaşma şəraitində dünya dövlətləri arasında çox sıx mədəniyyətlərarası körpülər yaransa da, məhz milli təhsil hər bir xalqın öz milli kimliyinin, nəticədə, onun varlığının təminatçısı kimi qalmaqdadır. Bəli, burada söhbət təkcə Ana dilinin, yaxud Vətən tarixinin öz dilimizdə övladlarımıza öyrədilməsindən getmir. Bu, elə bir məqamdır ki, elmin bütün sahələrində milli kadrlar yetişdirməklə biz Vətənimizin müdafiəsindən tutmuş buğda zəmisinə qulluq edilməsinədək hər sahədə öz elmi-texniki potensialımızı formalaşdırmalıyıq. Söz yox ki, indi, misal üçün, hardasa tibb sahəsində edilən hər hansı bir elmi ixtira bir anda dünyaya yayılaraq bütün bəşəriyyətin rifahına xidmət edir. Əslində, bu, belə də olmalıdır. Və şükürlər olsun ki, bu gün biz Azərbaycanın sərvətləri və mövcud potensialımız hesabına dünyanın bütün nemətlərindən gen-bol istifadə edə bilirik. Bizim də dünya elminə, mədəniyyətinə qazandırdığımız töhfələr az olmayıb. Təkcə Naxçıvanımızın fəxri, böyük alim Yusif Məmmədəliyevin ixtiralarının yalnız kimya elminə deyil, dünyada sülh və tərəqqi üçün nə qədər töhfə verdiyini xatırlatmaq yerinə düşər. Xülasə, bizim də baytarlıqdan tutmuş kosmik sənaye mütəxəssislərinədək dünyada tanınan elm adamlarımız vardır. Ancaq XXI əsrə keçid mərhələsində mövcud vəziyyət onu göstərir ki, bir vaxtlar elmdə, təhsildə əldə olunmuş ənənələrin qorunması, oxumağın bir ev tapşırığı deyil, gənclərin arzusu, imtahanların bir keçid mərhələsi deyil, şagirdlər və ya tələbələrin özünütəsdiq günü kimi bilinməsinə yenidən qaytarılması üçün qarşıda bizi çox işlər gözləyir. Ola bilər ki, ötən əsrin 90-cı illərinin kataklizmlərinin fəsadları təhsil sahəsində də qalmaqdadır. Amma artıq 2015-ci ildə, bu qədər təhsil infrastrukturu yaradıldığı, elektron vasitələrin belə geniş yayıldığı bir dövrdə bunu bəhanə gətirmək, ən azı, görməzlikdir. İndi məktəbə ilk gün qədəm qoyan altıyaşlı birinciləri möhtəşəm arzularına qovuşdurub gələcəkdə onların nəhəng elm çinarının kölgəsinə sığınmaq bu gün özünü azərbaycanlı hesab edən hər bir kəsin qayğısı, milli təhsilimizin vəzifəsi olmalıdır. Əks halda, kim bilir, hələ nə qədər nadir çiçəklərimiz əcnəbi alimlərin adına yazılacaq, hələ nə qədər xammalımız ucuz qiymətə xaricə aparılıb hazır məhsul kimi təzədən özümüzə baha qiymətə satılacaq.

Deməli, artıq dünyada xammal ölkəsi olmaqdan, indiyə qədər özünü doğrultmamış kiminsə təlqin yolunu tutmadan, bilmərrə, imtina edib öz inkişaf yolumuzu seçməliyik. Bilməliyik ki, ölkəmizin milli iqtisadi təhlükəsizliyinin təmin olunması, valyuta ehtiyatlarımızın qorunub saxlanılması üçün mümkün olduqca hazır məhsul ixracına nail olmaq, daxili bazarda idxalı əvəzləyəcək bir gücə çatmaq üçün son sözü məhz milli kadrlarımız, onları hazırlayan milli təhsilimiz deyəcək. Çünki nə qədər cazibədar olsa da, xarici kapitalın yalnız öz maraqları olduğu hələ iki yüz il öncəsindən sübut olunub. Belə təhsildə isə, şübhəsiz, nə əzbərçiliklə və ya kiminsə yazdığını hər gün təkrarlamaqla elm və təhsil müəssisələrində müəyyən məqam tutub, sadəcə, maaş alanlara, nə ötən əsrin 70-ci illərindən qalmış saralmış kağızlardakı qeydləri ilə boğazdan yuxarı "əl-zəbər" dərsi keçənlərə, nə də müasir informasiya-kommunikasiya texnologiyalarından minbir bəhanə ilə yayınanlara yer yoxdur. Yoxdur ona görə ki, indi nə Müsyö Jordan, nə Hatəmxan ağa, nə də ki dilə tutulub məktəbə göndəriləcək gənclərimiz var. İndi internet əsridir və maşallah, gənclərimizin 99 faizinin elm, informasiya almaq tələbatı bəzən onlara dərs deyən müəllimlərinin potensialından qat-qat artıqdır. Və bəzən də bu tələbat da ödənilməyəndə oturub gileylənirik ki, bəs uşaqlarımız milli olmayan ünsürlərə meyil edirlər. Əlini qaldırıb sual versən ki, nə zaman biz bu uşaqlarımızı monitorlardan, telefonlardan ayırıb onların yaddaşında əbədi qala biləcək bir tədbir, yaxud yaddaqalan bir təbiət ekskursiyası keçirdik? Yaxud mənim kimi bu işdən çıxıb o biri işə tələsən valideynlər, görəsən, öz övladları ilə gündə neçə saat vaxt keçirə bilirlər? Bəlkə, doğrudan da, dövrümüzün tədris proqramları çox ağırdır, uşaqların bizə ehtiyacı vardır? Müəllim həmkarların, yəqin ki, bu fikrimi təsdiqləyərlər: indiyə qədər tələbələrimizdən hansının valideyni zəng vurub müəllimdən xahiş edib ki, bizim uşağa güzəşt etməyin, qoy dərsini yaxşı mənimsəsin.

Amma hamılıqca bunu da yaxşı bilirik ki, hərtərəfli, savadlı yetişmiş, dünyəvi və dəqiq elmlərə, ölkəsinin, xalqının tarixinə yaxşı bələd olan, xarici dilləri bilən, texnologiyadan yaxşı baş çıxaran hər kəs harda olmasından asılı olmayaraq, öz məhsuldar əməyi ilə bütün cəmiyyətə faydalı olacaqdır. Çünki gözümüzün qabağında texnoloji yeniliklər günbəgün dəyişildiyi kimi, tələbatlarımız da sürətlə yenilənməkdədir. Və belə bir şəraitdə bu reallığı görə bilməyən təhsil işçisi istər məktəbəqədər, orta, istərsə də ali təhsil mərhələlərində özünün "hafizə məktəbi"ndə hazırladığı və məntiqi təfəkkür, yaxud sərbəst araşdırma cəsarətindən kəm məzunlarının yaradıcılıqdan və peşəkarlıqdan uzaq əməyinin nəticəsindən bütün ömrü boyu özü də əziyyət çəkəcəkdir. Amma yaxşı ki, kimlərinsə beşmanatlıq maraqlarının əksinə olaraq, cəmiyyətin ali tələbatları heç bir yamaq götürmür və hamını narahat edən, az qala bütün yüksək səviyyəli məclislərdə haqqında danışılan bu problem dövlətin zirvəsinin də gündəliyindədir. Təhsilin, məktəb işinin daim təkmilləşən, özündə yeni axtarışlar aparılmasını tələb etdiyini, bu sahənin fədakarlıq və heç bir güzəşt olmadan prinsipiallıqla inkişaf edəcəyini hər dəfə xüsusi olaraq vurğulayan muxtar respublika rəhbəri də "hafizə məktəbi"nin məzunlarının deyil, məntiqi təfəkkür və bilik təhsilindən nəsibini almış gənclərin böyük uğurlar qazana biləcəyini deyir.

*Bu uğurların davamlı olması üçün isə cari il mart ayının 14-də Naxçıvan Muxtar Respublikasında elm və təhsilin vəziyyəti və qarşıda duran vəzifələr mövzusunda keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: **"Təhsildə biliklərin mexaniki şəkildə əzbərlənməsinə yox, təhlilə, məntiqi təfəkkürə əsaslanan istiqamətlərin inkişafına çalışmalıyıq. Şagird və tələbələrin sərbəst mühakimə yürütmək və təhlil aparmaq bacarıqlarına, analitik nəticə çıxarmaq qabiliyyətlərinə üstünlük verməliyik".***

Əli CABBAROV

# "Muzey günləri" tariximizin, mədəniyyətimizin və dövlətçilik ənənələrimizin təbliğinə xidmət edir

**Tarixi mənbələrə müraciət etsək, görərik ki, tarixin bütün dövrlərində Naxçıvan Azərbaycan üçün önəmli bir bölgə olub və baş verən ictimai-siyasi hadisələr öncə Naxçıvanda təzahür edib, sonradan Azərbaycanda əks-səda doğurub. Müstəqillik illərində Naxçıvanda dövlətçiliklə və gələcək inkişafla bağlı atılan addımların sonrakı dövrlərdə Azərbaycanda əks-səda verməsi bir daha göstərir ki, bu region həmişə zamanın qaynar qazanına bənzəyib. Mətləbdən bir qədər uzaqlaşmağımın səbəbi də muxtar respublikamızda bir çox yeni ideyaların yaranması və onların mahiyyəti barədə təəssürat yaratmaq idi. Belə ideyalardan biri də "Muzey günləri"nin keçirilməsidir. Bu, tariximizin, mədəniyyətimizin, dövlətçilik ənənələrimizin, milli dəyərlərimizin məqsədyönlü şəkildə təbliği, gənclərə aşılanması və sahiblik hissinin gücləndirilməsi deməkdir.**



Hər birimiz yaşadığımız əsrin bir neçə onilliyinin şahidi oluruq. Amma mənsub olduğumuz xalqın, dövlətin tarixi minilliklərə uzanıb gedir. Həmin tarixi dönəmlərin sirlərini günümüzə kimi özündə əks etdirən, arxeoloji qazıntılar zamanı əldə olunan qiymətli eksponatları görmək və onlar haqqında məlumatlar öyrənmək, həmçinin qədim əlyazmaları, tarixi mənbələri görmək üçün muzeylərə getmək şərtdir. Bölgələrimizdə olan tarixdiyarşünaslıq muzeylərində mühafizə olunan eksponatlar illərlə aparılan arxeoloji qazıntılar nəticəsində, tədqiqatlar sayəsində əldə olunub muzeylərimizə təhvil verilən qiymətli nümunələrdir. Bu mənada muxtar respublikamızda "Muzey günləri"nin keçirilməsi birbaşa və dolayısı ilə bu xalqa aid olan mədəniyyətin, mənəviyyatın, ənənələrin insanlara tam mənası ilə aşılanması məqsədinə xidmət edir.

Naxçıvanın tarixi, onun mədəniyyəti ilə bağlı muzeylərimizdə qorunub saxlanılan əlyazmalardan, tarixi əsərlərdən əldə olunan məlumatlardan bir qismini oxucularımıza təqdim etmək istəyirəm ki, bunları başqa bir ünvanda tapmaq mümkün deyil. Muzeylərimizdən birində qorunub saxlanılan dəyərli mənbədə yazılır: "XIII yüzillikdə naməlum bir müəllif "Əcaib əd-dünya" əsərində Naxçıvanla bağlı belə bir fikir yazıb: "Deyirlər, yer üzündə Naxçıvandan çox əhalisi olan bir şəhər yoxdur".

Bu şəhərin yaşı müxtəlif mənbələrin hərəsində bir cür göstərilir. Şəhər kimi beş min ildən çox yaşı olduğu bilinən Naxçıvanda qədim əkinçiliyin, oturaq maldarlıq mədəniyyətinin qalıqları bu gün muzeylərimizdə qorunaraq bu tarixi özündə yaşadır.

Kosmonavt A.Leonovun Naxçıvan haqqında söylədiyi fikirlər də maraqlıdır. Görüşlərindən birində deyib ki, kosmosdan Yer kürəsi son dərəcə gözəl, çəhrayı bir rəngdə görünür. Yerə qayıdandan sonra hara yolum düşürdüsə, həmin rəngi axtarırdım. Bu rəngi, nəhayət, Naxçıvanda tapdım. Kosmosdan baxanda bütün Yer kürəsi Naxçıvan torpağının rəngində görünür.

Dünyanın möcüzəli yerlərindən olan Naxçıvana "Nuhçıxan" da deyilir. Bu ad bu yurd yerinin insanlarını qədim bəşər nəslinin ən qədim kökünə bağlayır. Hörmətli oxucularımıza Naxçıvanla bağlı müxtəlif mənbələrdən oxuduğum, öyrəndiyim və bəlkə də, onların bildiyi bu tarixi faktları xatırlatmaqda bir məqsədim var. Biz bu faktları, məlumatları dilimizə gətirərkən ilk sözümüz bu olur: filan tarixi mənbədə, filan müəllifin əsərində, filan muzeydəki əlyazmalarda göstərildiyi kimi...

Bu mənbələr, tarixi faktları qələmə alan müəlliflər haqqında əsas məlumatları haradan əldə edə bilirik? Bu sualın, məncə, bircə cavabı var – muzeylərdən. Belə mədəniyyət ocaqlarında qorunub saxlanan eksponatlar vasitəsilə həm tarixi şəxsiyyətlər, həm tarixi dövrlər, həm mənbələr, həm də insanlar, onların yaşayış tərzi haqqında dürüst məlumat əldə etmək mümkündür. Əgər eksponatlar, əsrlərlə yaşı olan əlyazmalar, müxtəlif əşyalar muzeylərimizdə qorunub saxlanmazsa, onda yuxarıda şərh elədiyim reallıqları biz doğru-dürüst öyrənə bilmərik. Dünyanın yaranışı, tarixi inkişaf və qədim həyat tərzi, mədəniyyətlər haqqında faktları biz ancaq qorunan, yaşadılan mənbələr vasitəsilə öyrənə bilirik. Bəlkə də, oxucu yenə də məqsəddən uzaqlaşdığımı düşünəcək. Ancaq bu gün muxtar respublikamızda məqsədyönlü şəkildə həyata keçirilən "Muzey günləri"ndə muzeylərə gəzintilərin təşkil olunmasının insanlarda o eksponatlara qarşı nə qədər maraq yaratmasının şahidi olduğum üçün fikrimi bir qədər geniş çatdırmağa çalışıram. Sözsüz ki, Şahbuz rayonunda da tərtib olunmuş cədvələ əsasən, rayon İcra Hakimiyyəti aparatının, müxtəlif təşkilatların əməkdaşları ilə bərabər, "Oğuz səsi " qəzetinin kollektivi də Şahbuz şəhərindəki Tarix-Diyarşünaslıq və Nursu kəndindəki Məmməd Arazın ev-muzeyində bir neçə dəfə olub. Həmin tədbirdə iştirak edərkən yaşından asılı olmayaraq, sərgiyə baxan tamaşaçıların bir-birlərinə suallar verməsini, həmçinin muzey əməkdaşlarına eksponatlarla bağlı çoxlu suallar ünvanlamasını görəndə düşündüm ki, atalarımız demişkən, yüz eşitməkdənsə, bir görmək yaxşıdır. Baxmayaraq ki, Şahbuz rayonundakı Tarix-Diyarşünaslıq Muzeyi uzun müddətdir, fəaliyyət göstərir. Amma rayon sakinlərindən bəziləri bu muzeyə ilk dəfə idi gəlirdilər. Deməli, bir rayonun timsalında müşahidə olunan bu hal muxtar respublikamızın digər bölgələrində də, yəqin ki, mövcuddur. Ona görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun muxtar respublikada "Muzey günləri"nin keçirilməsini diqqət mərkəzində saxlaması insanlara tariximizin, milli mədəniyyətimizin, kimliyimizin aşılanması istiqamətində görülən işlərin mahiyyətindən xəbər verir. Ali Məclis Sədrinin muzeylərlə bağlı söylədiyi fikirlərdə bu, öz əksini tapır: ***"Muzeylər bizim tariximizi, mədəniyyətimizi özündə qoruyub gələcəyə daşıyır. Lakin iş muzeylərin yaradılması ilə bitmir, onların daim zənginləşdirilməsinə, tamaşaçıların muzeylərə cəlb olunmasına da ciddi diqqət yetirilməlidir".***

Şəhla NƏBİYEVA

# Oxucu məktubları

## Etimadı doğrultmağa çalışacağam

*Hörmətli redaksiya!*

Respublikamızda iqtisadiyyatın, səhiyyənin, mədəniyyətin sürətli inkişafı ilə bərabər, təhsilimizdə də davamlı inkişaf özünü göstərməkdədir. Bunu universitetlərə yüksək balla daxil olan abituriyentlərin sayı da təsdiqləyir. Əlbəttə ki, bu inkişaf təsadüfi deyil, bir çox səbəbləri var: bir tərəfdən, müasir tələblərə cavab verən təhsil ocaqlarının tikilməsi və ya yenidən qurulması, digər tərəfdən, savadlı və peşəkar müəllimlərə verilən mükafatlar və fəxri adlar, yüksək bal toplayan şagirdlərin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən şəxsən mükafatlandırılması şagirdləri və müəllimləri daha yaxşı çalışmağa, bu qayğıya və diqqətə layiq olmağa sövq edir.

14 mart 2015-ci il tarixdə keçirilən müşavirədə təhsilin bugünkü səviyyəsi geniş müzakirə olundu. Müşavirədə 28 müəllim və tələbə mükafatlandırıldı, onlara kompüter hədiyyə edildi. Bu, fəaliyyətində fərqlənən bir qrup müəllim və tələbənin timsalında təhsilə və təhsil işçilərinə verilən qiymət, göstərilən diqqət və qayğının təzahürüdür. Mükafatlandırılanlardan biri də mən idim.

Mənim çalışdığım Naxçıvan Dövlət Universitetində müasir kompüterlərlə təchiz olunmuş tədris otaqları, elektron lövhəli auditoriyalar, fənn kabinələri, elektron kitabxana və laboratoriyalar yaradılıb ki, bütün bunlar müasir ali təhsil ocağı üçün vacib amildir. Dissertant və doktorantlar tədrisdən ayrılmadan distant təhsil imkanlarından yararlanırlar. Bakalavriatlarımız yüksəkixtisaslı müəllimlərdən dərs alaraq magistratura təhsil pilləsinə qəbul olunurlar.

Mükafatlandırılmağım mənə stimul verdi. Bundan sonrakı fəaliyyətimi günün tələbləri səviyyəsində qurmağa, informatikanın tədrisində yeni texnologiyalardan daha geniş istifadə etməyə və bu etimadı doğrultmağa çalışacağam.

**Sevinc PAŞAYEVA**
**Naxçıvan Dövlət Universitetinin İnformatika kafedrasının müəllimi**

## Aviakassanın xidmətindən razıyıq



*Muxtar respublika sakinlərinə müxtəlif sahələrdə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlərin həcmi getdikcə artır. Bu, bir tərəfdən regionda təmin edilmiş sosial-iqtisadi inkişafın göstəricisi, digər tərəfdən insanların yaxşı yaşamasına, fəaliyyət göstərməsinə ünvanlanmış qayğının ifadəsidir.*

Belə tədbirlərin təzahürlərini muxtar respublikanın bütün bölgələrində görmək olar. Ordubad rayonu da bu cəhətdən istisna deyil. Hər il rayonda bu istiqamətdə müxtəlif layihələr reallaşdırılır ki, bu da ordubadlılar tərəfindən yüksək dəyərləndirilir. Ötən günlərdə rayon mərkəzində yeni aviakassa binasının istifadəyə verilməsi belə layihələrin həyata keçirilməsinin davamlı xarakter aldığını göstərir.

Hörmətli redaksiya! Məlumat üçün bildirim ki, ordubadlıların ölkəmizin paytaxtı Bakı şəhəri və digər bölgələri ilə yanaşı, qonşu Rusiya Federasiyasının bir çox şəhərləri ilə geniş əlaqələri var. Bu səbəbdən də hər gün onlarla ordubadlı Naxçıvan Beynəlxalq Hava Limanının xidmətindən istifadə edir. Bu sayda insanın xeyli vaxt itirərək 80 kilometr yol qət etməklə Naxçıvan şəhərinə gəlib bilet alması bir sıra çətinliklər yaratmışdı. Ordubad şəhərində müasir tələblərə cavab verən, arxitektura üslubu ilə rayon mərkəzinə daha bir gözəllik gətirən yeni aviakassa binasının inşa olunması hamımızı ürəkdən sevindirib.

Bina iki mərtəbədən ibarətdir. Gözləmə zalı birinci mərtəbədə yerləşir. Bilet almaq istəyənlər 5 satış kassasının xidmətindən istifadə edirlər.

Burada yeni texnologiyalar tətbiq edilib. Sərnişinlər gözləmə zalındakı monitor vasitəsilə təyyarə reysləri və boş yerlər haqqında əvvəlcədən məlumat əldə edə bilirlər.

Biz sakinlər üçün yaradılan şəraitə görə dövlətimizə minnətdarlığımızı bildiririk.

**Səbahət MEHDİYEVA**
**Ordubad şəhər sakini**

## Naxçıvanın inkişafı məni valeh etdi



*Hörmətli redaksiya!*

Bu məktubu sizə Ağcabədi rayonundan yazıram. Oğlum Aslan Hacıyev 9 aydır ki, Naxçıvan şəhərində yerləşən hərbi hissədə xidmət edir. Bu müddət ərzində daim telefon əlaqəmiz olsa da, Novruz bayramı ərəfəsində ona baş çəkmək üçün Naxçıvana gəlməyi qərarlaşdırdım. Bir neçə günlük tətil mənim bura gəlməyimə imkan verdi. Hava limanında təyyarədən düşdükdən sonra bir taksi sürücüsünün köməyi ilə oğlumun xidmət etdiyi hərbi hissəyə gəldim. Növbətçi əsgərlərdən xahiş etdikdən 20-25 dəqiqə sonra onunla görüşdüm, ata-bala bir xeyli söhbət etdik. Aslanla hər zaman telefonla danışanda Naxçıvanda müasir hərbi hissələrin olduğunu, buradakı xidmətin çox gözəl keçdiyini deyirdi. İndi isə bunu öz gözlərimlə görürdüm. Hərbi hissədə valideynlərlə görüş üçün nəzərdə tutulmuş otaqda məndən savayı əsgər yanına gəlmiş digər valideynlər də var idi. Bir azdan Aslanın bölük komandiri ilə də görüşüb söhbət etdik. Hər şey ürəyimcə oldu. Oğlum mənə demişdi ki, Naxçıvandakı hərbi hissələrdə yerli əsgərlərə evə getməyə icazə veriləndə Azərbaycanın digər regionlarından olanlar da unudulmur. Hansı əsgərin bir-biri ilə münasibəti varsa, qonaq əsgərin də onunla birgə getməsinə şərait yaradılır. Valideynləri uzaq rayonlardan gəlmiş əsgərlər də təbii ki, unudulmur. Fikrimizi komandirə bildirəndə etiraz etmədi və sabah üçün bunun baş tuta biləcəyini dedi, oğlumun ad-soyadını əlindəki dəftərçəyə qeyd etdi. Sabah üçün buraxılış vaxtını dəqiqləşdirib şəhərə üz tutdum və mehmanxanada ikigünlük yer sifariş etdim. İstirahət etməyə tələsmirdim. Hər zaman adını eşitdiyim, ancaq özünü görmədiyim Naxçıvan şəhərini piyada gəzməyə başladım. Uzaqdan "Təbriz" mehmanxanasını görürəm, ora doğru yol alıb ətrafdakı bir-birindən gözəl, müasir binalara, yollara, mağazalara baxıram. Hər tərəfin təmiz olması, maşınların səssiz-küysüz yanımdan keçməsi məni çox təəccübləndirir. Şəhərdəki havadan yağış qoxusu gəlsə də, otelə getməyə hələ çox vaxtımın olduğunu düşünürəm. Şəhərdə Novruzla bağlı ab-hava hiss olunur. Hər yerdə səmənilər qoyulub, insanlar alış-veriş üçün mağazalara axışırlar. Naxçıvan mənə çox xoş təsir bağışladı. Vaxtım olarsa, buranı ziyarət edəcəyimi düşünürəm. Sabahkı gün oğlumla birlikdə şəhəri bir daha gəzmək imkanımız oldu. Buradakı möhtəşəm universitet şəhərcikləri məni hədsiz dərəcədə heyrətləndirdi.

Naxçıvanda gördüyüm müasir məktəb və uşaq bağçası binaları muxtar respublikada təhsilin inkişafına, gələcək nəslin təhsilli böyüməsinə göstərilən böyük qayğıdan xəbər verir. Naxçıvan şəhərindəki kimi geniş yollara mən Azərbaycanın heç bir bölgəsində rast gəlməmişəm. Orada olarkən diqqətimi cəlb edən başqa bir cəhət isə tarixi abidələrə və muzeylərə göstərilən münasibət oldu. Möminə xatın türbəsini, Xan sarayını, Naxçıvanqalanı ziyarət edərkən bizə dedilər ki, bu tarixi abidələr son illər bərpa olunub. Naxçıvandakı muzey binaları öz müasirliyi və ekspozisiyanın zənginliyi ilə seçilir.

Bir sözlə, Naxçıvan məndə tarixi və müasir, çox gözəl və təmiz, sürətli inkişaf edən bir region təəssüratı yaratdı.

Bakıya geri dönəcəyim gün oğlumla hərbi hissədə xeyli söhbət etdik. Ətrafımızda söhbətə qoşulan digər əsgərlər də var idi. Hamısı da xidmətlərindən çox razı idilər. Burada komandirlərin onlara böyük qayğı göstərdiklərini dedilər. Söhbət etdiyimiz otaqdakı masanın üzərində səliqə ilə yığılmış qəzetlərə gözüm sataşdı. Qəzet oxumağa hər zaman maraqlı olduğumdan bunlardan bir neçəsini əlüstü vərəqləməyə başladım. Bu qəzetlər içərisində gözüm üzərində "Şərq qapısı" yazılmış qəzetə sataşdı. Əsgərlər mənə bu qəzetin Naxçıvanda nəşr olunduğunu dedilər. Maraq üstələdi, nəşr tarixi keçmiş olsa da, bəzi yazı başlıqlarını nəzərdən keçirdim. Səhifələrdən birində isə "Oxucu məktubları" ilə qarşılaşdım. Bir neçəsini tələsik oxudum. Səhv etmirəmsə, biri dövlət tərəfindən yeni mənzillə təmin olunmuş ailə üzvünün minnətdarlıq məktubu idi. Açığını desəm, elə həmin an Naxçıvanda gördüklərim barədə bir məktub yazıb qəzetə göndərmək arzusu keçdi ürəyimdən. Bu istəyimi isə əsgərlərə deyəndə qəzetin internet saytının olduğunu bildirdilər. Və rayonumuza qayıtdıqdan sonra bu istəyimi reallaşdıra bildim. Bu məktubu yazaraq Naxçıvan haqqında təəssüratlarımı "Şərq qapısı" ilə bölüşməyi qərara aldım.

**Hörmətlə, Natiq HACIYEV**
**Ağcabədi rayonunun İmamqulubəyli kənd sakini, mühəndis**

## Sahibkar minnətdarlıq edir

*Hörmətli redaksiya!*

Sahibkarlığa göstərilən qayğıdan ruhlanaraq 2008-ci ildə bina icarəyə götürüb Şərq şirniyyatları, 2013-cü ildə isə dondurma istehsalına başladıq. Açığını deyim ki, istehsal etdiyimiz məhsullara bu qədər tələbatın olacağını gözləmirdik. Uyğunlaşdırılmış binada fəaliyyət göstərən müəssisədə artan tələbatın ödənilməsi, istehsal sahələrinin genişləndirilməsi və əlavə işçi qüvvəsinin cəlb edilməsi imkanı məhdud olduğundan yeni binanın tikilməsi zərurəti yarandı. Digər sahibkarlar kimi, bizim müəssisə də dövlət qayğısından bəhrələndi. Naxçıvan şəhərinin Babək məhəlləsində müəssisə üçün min kvadratmetr torpaq sahəsi ayrıldı. 2013-cü ilin aprel ayından inşaat işlərinə başladıq. Burada 3 mərtəbəli bina inşa etmişik. Hazırda obyektdə son tamamlama işləri görülür. Müxtəlif çeşiddə daha keyfiyyətli məhsullar istehsal etmək məqsədilə müasir texnoloji avadanlıqların alınması üçün 2014-cü ilin mart ayında Sahibkarlığa Kömək Fondundan 100 min manat güzəştli kredit ayrıldı. Şirniyyat və dondurma istehsalı sahələrində qabaqcıl təcrübəyə malik Türkiyənin "OMG" və "Sevel" şirkətləri ilə müqavilə bağladıq, maliyyə vəsaitinin bir hissəsini ödədik. Müəssisədə quraşdırılacaq avadanlıqların bir hissəsini alıb gətirdik. Digər bir hissəsi isə yaxın günlərdə alınıb gətiriləcək.



İstehsal gücü gündə 1 ton 80 kiloqram dondurma olacaq istehsal sahəsində hazır məhsullar 80, 500 qramlıq və 1 kiloqramlıq taralarda, gündəlik istehsal gücü 1 ton 920 kiloqram şirniyyat olacaq istehsal sahəsində isə məhsullar müxtəlif çəkilərdə nəfis tərtibatla bəzədilmiş taralarda satışa çıxarılacaq. Fəaliyyətə başladığımız ilk illərdə 2-3 çeşiddə məhsul istehsal edirdik. Yeni bina və burada quraşdırılan müasir texnoloji avadanlıqlar imkan verəcək ki, 70 çeşiddə Şərq şirniyyatları istehsal edib satışa çıxaraq. İstehsal olunan məhsulların müəyyən olunmuş temperaturda ayrı-ayrı bölgələrdə fəaliyyət göstərən topdan və pərakəndə satış obyektlərinə vaxtında və keyfiyyətlə çatdırılması üçün soyuducu kamera ilə təmin olunmuş yeni avtomobil də alacağıq.

Müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla fəaliyyəti genişləndirilən "Fərda şirniyyat" istehsalı müəssisəsi daxili bazarı müxtəlif çeşidlərdə keyfiyyətli məhsullarla təmin etməklə yanaşı, əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayacaq, müəssisə tam gücü ilə işləyən zaman 60 nəfər daimi işlə təmin ediləcək.

Yaradılan şəraitə, göstərilən qayğıya görə dövlətimizə minnətdaram. Muxtar respublikada daxili bazarı keyfiyyətli yerli məhsullarla təmin etmək üçün mövcud imkanlardan səmərəli istifadə etməklə göstərilən qayğıya əməli işlə cavab verməyə çalışacağıq .

**Zamiq SƏFƏROV**
**sahibkar**

## Uşaqlarımıza xalq oyunlarının öyrədilməsi arzusundayıq

*Hörmətli redaksiya!*

Xalq oyunları uşaqlarda düşünmə qabiliyyətini, təxəyyülü və təfəkkürü formalaşdıran idman oyunlarındandır. Onlar həm də folklor nümunəsidir. Lakin son dövrlər həraki oyunların yerini fərdi, xüsusilə kompüter oyunlarının tutması cəmiyyətin ciddi probleminə çevrilib. Bir vaxtlar uşaqlar arasında dəbdə olan xalq oyunları, çox təəssüf ki, tədricən unudulmaqdadır. Bu hala xüsusən şəhər yerlərində daha çox təsadüf olunur. Yaxşı haldır ki, milli bayramlar zamanı müxtəlif kollektivlər tərəfindən bu cür oyunlar meydanlarda nümayiş etdirilir.

Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin birinci sinfində oxuyan övladım da kompüter oyunlarına daha çox maraq göstərir, asudə vaxtının böyük hissəsini belə oyunlara sərf edir. Bu bir həqiqətdir ki, uşaqlar tərəfindən əvvəllər daha çox xalq oyunlarına müraciət edilirdisə, müasir uşaqların çoxu, eləcə də övladım bu oyunlardan xəbərsizdir. Arzu edirəm ki, mövcud imkanlar daxilində xalq oyunlarına məktəbdə bədən tərbiyəsi dərslərində, eləcə də dərsdənkənar məşğələlərdə vaxt ayrılsın, bu vasitə ilə bütün şagirdlərin bu oyunlar haqda məlumatı olsun. İnanıram ki, belə bir addımın atılması uşaqların həyatına rəng qatmaqla, onlara gümrahlıq və sevinc bəxş etməklə bərabər, onların şəxsi keyfiyyətlərinin inkişafına da böyük təsir göstərəcək, uşaqların fiziki cəhətdən sağlam böyümələrinə, şəxsiyyət kimi formalaşmalarına müsbət təsir edəcək.

**Səcidə HÜSEYNOVA**
**Naxçıvan şəhər sakini**

## Voleybol üzrə muxtar respublika açıq birinciliyi başa çatıb



***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Voleybol Federasiyasının birgə təşkil etdiyi açıq birinciliyə yekun vurulub.***

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində 3 gün davam edən birincilikdə 8 komanda iki yarımqrupda mübarizə aparıb. A qrupunda "DİN" (Daxili İşlər Nazirliyinin komandası), "Şahbuz", "Sədərək", "Ordubad", B qrupunda isə "Şərur", "Culfa", "Babək" və "Kəngərli" komandalarının mübarizəsində finala A qrupunun iştirakçıları vəsiqə qazanıblar.

Birinciliyin son günündə əvvəlcə meydana üçüncülük uğrunda "Şərur" və "Culfa" komandaları çıxıblar. Daha üstün oyun nümayiş etdirən Culfa voleybolçuları meydanı 3:1 hesablı qələbə ilə tərk edərək birinciliyi üçüncü pillədə başa vurublar. Final görüşü isə gözlənildiyindən də maraqlı keçib. A qrupunda mübarizə aparan "DİN" və "Sədərək" komandaları qrup mərhələsində qarşılaşmış və sədərəklilər rəqibini 3:1 hesabı ilə məğlub etmişdilər. Həlledici qarşılaşmada "DİN" voleybolçuları işlərinin heç də asan olmadığını bilirdilər. Eldar Zülfüqarovla Rüstəm Cəfərovun idarə etdiyi qarşılaşma sədərəklilər üçün heç də yaxşı başlamadı və onlar ilk iki setdə istirahətə məğlub yollandılar. Elə finalın dönüş nöqtəsi də buradan başladı. İlk iki setdə bütün gücünü ortaya qoyan və rəqibinə aman verməyən "DİN" voleybolçularının səhvindən sədərəklilər maksimum yararlandılar və hesab arasındakı fərqi azaltdılar – 2:1. Növbəti – dördüncü setdə isə oyunun axarı tam olaraq dəyişdi və sədərəklilər açıq fərqlə rəqiblərini məyus etməyi bacardılar. Oyunun həlledici – 5-ci setində komandalar bütün güclərini ortaya qoydular. Əvvəlcə "DİN" komandası ardıcıl xallar qazanmaqla hesab arasındakı fərqi 5 xala çatdırdı. Di gəl ki, bir qədər arxayınçılıq onlar üçün uğursuz sonluqla yekunlaşdı. Rəqibinə ciddi müqavimət göstərən "Sədərək" son setdə 15:13 hesabı ilə qələbə qazanaraq Naxçıvan Muxtar Respublikası açıq çempionatının qalibi adını qazandı.

Gənclər və İdman Nazirliyi ilə Voleybol Federasiyasının təşkil etdiyi birinciliyin mükafatlandırma mərasimində çıxış edən Gənclər və İdman nazirinin müavini Məcid Seyidov və yarışın baş hakimi, beynəlxalq dərəcəli hakim Oqtay Musayev idmançıları mükəmməl oyunlara görə təbrik etdilər.

Sonda qalib komandalara diplom və hədiyyələr təqdim olundu.

**Ceyhun MƏMMƏDOV**

***Çörək müqəddəs nemətdir. Tarixboyu andımız, alqışımız çörəklə də olub: "Çörək haqqı", "Çörəyə and içirəm", "Səni çörəyə and verirəm", "Süfrənə bərəkət", "Həmişə çörəkli olasan" andları, alqışları dillərdən düşməyib. Böyüklərimiz dostluğu daha da möhkəmləndirmək üçün duz-çörək kəsiblər. Qonaq gələndə süfrəyə birinci duz-çörək gətirilib. Yaxşı adam haqda danışılanda "Çörək verən adamdır", pis xasiyyətli, heç kimin inanmadığı, nankor adam haqda danışılanda isə "Çörəyi dizinin üstündədir" deyilib. Bir sözlə, xalqımız üçün çörəyin mənəvi dəyəri daha yüksək olub.***

*Jurnalist araşdırması*

## "Çörək haqqı" deməyə mənəvi haqqımızın olması üçün...

### *Qədərsiz çörəyin qədri bolluq zamanında bilinməlidir*

***"Naxçıvan 1 nömrəli çörək zavodunun nəzdindəki mağazadan hər gün yüzlərlə adam çörək alır. Əgər buna almaq demək mümkündürsə. Burada saatlarla dayanmağın "ləzzətini" görənlər görüb. Görməyənlərə bu əziyyəti dərk etdirmək üçün gərək, heç olmasa, bircə dəfə burada növbədə durmağın dadını göstərəsən. Günün hansı saatında getsən, burada tünlüklə rastlaşarsan. Adı növbə olan bu dəstədə adamlar dörd cərgə ilə dururlar. Gələn də bilmir ki, kim kimdən sonradır".***

Bu sətirlər "Şərq qapısı" qəzetinin 1993-cü il 9 yanvar tarixli nömrəsində dərc olunan "Bu günümüzdə çörək növbəsi" sərlövhəli yazıdan götürülüb. Və elə bu bir neçə sətir oxucularımızın müstəqilliyimizin ilk illəri ilə bağlı xatirələrini təzələməyə, o dövrün ağrı-acılarını, müharibənin gətirdiyi məhrumiyyətləri, ərzaq, başlıcası da, çörək qıtlığını yada salmağa bəs edər.

Hələ çox-çox əvvəllər baba-nənələr öz nəvələrini yanlarına çağırıb müharibələrdə insanların çörək sarıdan böyük çətinliklərlə üzləşməsindən, çörək qıtlığının böyük fəsadlara səbəb olmasından danışardılar. Gün o gün oldu ki, nəvələr böyüdü və baba-nənələrinin, böyüklərinin çörəyin qədir-qiyməti ilə bağlı nəsihətlərini unutdular. Çörəkdən israfçılıqla istifadə edildi və çörək bolluğundan sui-istifadə kütləvi hal aldı. Sonrasını da Sovetlər Birliyinin parçalanmasının canlı şahidi olanlar daha yaxşı bilirlər. Mağazaların vitrinlərindən süfrələrin əziz neməti olan çörək yoxa çıxdı və müstəqilliyin ilk illərində qıtlıq özünü göstərdi.

Tanrıya şükürlər olsun ki, bu gün mağazaların piştaxtalarında, rəflərdə istənilən növdə, istənilən miqdarda çörək vardır. Ancaq çörək barədə bir mövzu var ki, o, yenə də aktualdır. Bu mövzu qədərincə bol olan çörəyin qədrinin bilinməməsi, israfçılıqla işlənməsi, ümumilikdə isə yaxın tarixdə çörək qıtlığı ilə bağlı acı xatirələrə unutqan münasibət göstərməyimizdir.

Bir vaxtlar onu əldə etmək üçün sübhün şəfəqləri dan yerini işıqlandıranda yuxumuza haram qatıb yollara düşdüyümüzü, saatlarla növbədə durduğumuzu, bəzən əliboş evə qayıtdığımızı unutmuşuq, deyəsən. Çörəkdən necə gəldi istifadə edir, onu, bərəkətinə şükür, tullantı kimi atırıq. Düşünmürük ki, dünyanın başqa bir yerində bir parça çörəyin yoxluğu ucbatından dünyasını dəyişən, ağır işlərə, məşəqqətlərə düçar olan insanlar, uşaqlarına çörək ala bilmədiyi üçün evinin qapısını döyə bilməyən valideynlər var. Əgər Tanrı bizə bu xoşbəxtliyi bəxş edibsə, dövlətimiz qüdrətli, ölkəmiz zəngindirsə, əmin-amanlıq, bolluq içində yaşayırıqsa, bunun qədrini bilməli, minbir zəhmətlə ərsəyə gələn çörəyimizə hörmətlə yanaşmalı deyilikmi? Niyə şadlıq saraylarında keçirilən toy məclislərində süfrəyə istifadə ediləcəyindən artıq çörək qoyuruq? Niyə hər toy-düyündən, bayram şənliklərindən sonra çuvallarla çörək qırıntısı atılır? Bəlkə, elimizin ruzi-bərəkətinin bağrına vurulan yara elə bizim mənəvi aclığımız, unutqanlığımız üzündəndir?





Diqqətimizi çəkən digər bir məsələ doğma diyarımızda çörək istehsalı və satışında ortaya çıxan problemlərdir. Çörəyə olan münasibət tarlada da, dəyirmanda da, çörəyin istehsalında və alıcılara çatdırılmasında da eyni, həssas olmalıdır. Qeyd edək ki, bu gün muxtar respublikada yeyinti sənayesinin mühüm sahəsi olan çörək-bulka məmulatı istehsalı müəssisələri çoxluq təşkil edir. Hazırda regionda iri un dəyirmanları, çörək zavodları, eləcə də şirniyyat sexləri fəaliyyət göstərir. Sözügedən sahənin yerli xammal hesabına işləməsini təmin etmək üçün taxıl əkini sahələri genişləndirilir.

Təqribən, 15 gün bundan öncə Naxçıvan şəhərində fəaliyyət göstərən lavaş sexlərində aparılan müşahidələr zamanı ortaya çıxdı ki, sözügedən qida məsullarının istehsalı zamanı mövcud qaydalara və standartlara o qədər də diqqət yetirilmir. Belə ki, Naxçıvan şəhəri, "20-ci" məhəllədə fəaliyyət göstərən, 6 nəfərin işlədiyi lavaş sexində istehsal zamanı gigiyenik qaydalar pozulur. İşçilərin xüsusi geyimi, ayaqqabısı, xalatı mövcud standartlara uyğun deyil. Onların yemək-içmək və digər tələbatları elə sexin istehsal sahəsində qarşılanır. Sahibkar Mübariz Baxşəliyevin "mətbəx" adlandırdığı məkanda gigiyenik qaydalara əməl olunmasından söhbət gedə bilməz. Digər bir problem isə burada işləyənlərin "Tibbi kitabça"ları ilə bağlıdır. Belə ki, "Tibbi kitabça"larda işçilərin ən son nə zaman tibbi müayinədən keçdiklərini təsdiq edən möhürlərin müddəti çoxdan keçib. Xəmirin kündələnməsi açıq əllə aparılır, bu proses xüsusi formalı qablarda aparılmır. Əllə kündələnmə zamanı işçilər şəxsi gigiyena qaydalarına riayət etmirlər.







Naxçıvan şəhərindəki daha bir ünvanda, Nazim Hikmət küçəsində yerləşən sexdə 4 işçi lavaş istehsalı ilə məşğul olur. Afilə Muradova adlı şəxsin sahibkarı olduğu sexdə apardığımız müşahidələr göstərir ki, burada çörək istehsalına qoyulan sanitar tələblər ciddi şəkildə pozulur. Bişdikdən sonra çörəklər sobadan birbaşa xüsusi taxtanın üzərinə düzülmür, xüsusi taxta rəflərdə, taxta yeşiklərdə saxlanılmır və soyudulmur. Bişən çörəklər seçilmir, 15-20 dəqiqədən sonra digər taxta rəflərdə dikinə yığılmır. Şadlıq evləri üçün nəzərdə tutulan çörəklər sellafon torbalarda saxlanılır. Burada suyun axıdılması üçün xüsusi şərait yoxdur. Bir çox avadanlıq və ləvazimatların yuyulmasında dezinfeksiyaedici maddə kimi xloramindən istifadə olunmur.

Müşahidələrimiz zamanı Naxçıvan şəhərinin Qaraxanbəyli və Qaraçuq kəndlərində fəaliyyət göstərən lavaş sexlərində də gigiyenik qaydalara əməl olunmadığının şahidi olduq.

Qeyd edək ki, çörək satışının da öz standartları var. Belə ki, məlum olduğu kimi, çörək qablaşdırılması nəzərdə tutulmayan ərzaq məhsulları sırasına daxildir. Amma qablaşdırılmasa da, çörəyə əl vurmaq yolverilməzdir. Ona görə çörək satılan yer alıcıdan kənar olmalıdır. Çörək yuyulmur, başqa formada dezinfeksiya oluna bilmir ki, mikrobları məhv etmək mümkün olsun. Həmçinin çörək alıcı tərəfindən əllə yoxlanıla bilməz, satıcı da çörəyə əl vura bilməz. Satıcı mütləq xalat geyinməli, xüsusi papaq qoymalıdır. Çörək saxlanılan yer külək vuran yerdə olmamalıdır. Satış yerlərində çörək saxlanılan rəflərdəki çörək ovuntuları xüsusi fırça ilə təmizlənməlidir. Taxta rəflər həftədə 2 dəfə olmaqla, 3 faizli sirkə turşusunda isladılmış dəsmalla təmizlənməlidir. Bir çoxlarınız şahidi olmusunuz ki, mağazalara çörək paylayan şəxslər səhərlər mağazaların bağlı olduğunu görüb çörək dolu qutuları mağazaların qapısı önünə açıq şəkildə qoyub gedirlər. Bir az sonra Naxçıvan Şəhər Sanitar-Təmizlik İdarəsinin işçiləri küçələrdə təmizlik işlərinə başlayırlar. Buradan yaranan toz qarşısında çörəklər "müdafiəsiz" qalır. Çörəklər mağazaya yığıldıqdan sonra da problemlər yaranır. Belə ki, mağazalarda "Çörəyə əllə toxunmaq olmaz" xəbərdarlığı olan elanlar olsa da, alıcılar buna məhəl qoymur, çörək rəflərindəki məhsulları bir-bir əl vurub alırlar. Bütün bunlar gigiyenik cəhətdən yolverilməzdir.

Çörəyin mağazalarda satışı ilə bağlı Naxçıvan şəhərində apardığımız müşahidələr zamanı gördük ki, bir çox mağazalarda satıcıların xalatı və papağı yoxdur. Çörək yığılan rəflər girişdə quraşdırılıb və mağazaya girən alıcı asanlıqla çörəyi əlinə ala bilər. Buna nümunə olaraq deyə bilərik ki, şəhərimizin "İstiqlal" küçəsində Malikəjdər Qasımova aid ərzaq mağazasında çörək şkafının lap yaxınlığında istənilən sənaye məhsulu tapmaq mümkündür.

Şəhərimizin Əliqulu Qəmküsar küçəsində yerləşən yaşayış binasındakı mağazada fəaliyyət göstərən sahibkar Məhəmməd Əmiyev ona ünvanladığımız "Alıcılar rəfdəki çörəyi açıq əllə götürürlər?" sualımıza o, "Necə istəyirlərsə, elə də götürürlər", – deyə cavab verir. Və bu cavabıyla da büruzə verir ki, qapıdan girən müştərilər onun üçün, sadəcə, gəlir mənbəyidir və onların sağlamlığı onu zərrə qədər də olsun, maraqlandırmır.

Şəhərin "Əlincə" məhəlləsindəki ərzaq mağazasının sahibkarı Zaur Vəliyevlə söhbətimizdə o, çörəyin satışı üçün mağazada qaydalara ciddi riayət olunduğunu və bu qaydalarla bağlı hər bir alıcıya məlumat verdiyini bildirir. Sahibkar deyir ki, bəzi alıcılara çörəyə əllə toxunmağın elə onların sağlamlığı üçün zərərli olduğu barədə hər dəfə məlumat verir. Ancaq onlar buna etinasız yanaşır, hər dəfə təkrar-təkrar çörəyi əllə yoxlamağa cəhd edirlər. Onlara bu barədə irad tutulduğunda isə inciyib-küsənlər də olur. Ancaq biz xəbərdarlıq etməyə davam edirik. Belə alıcılar başa düşməlidirlər ki, çörək satışında gigiyenik qaydalara əməl olunması onların sağlamlığına xidmət edir.

Belə mənzərə ilə Naxçıvan şəhərindəki əksər mağazalarda rastlaşmaq olar. Bu işdə satıcılardan daha çox alıcıları günahlandırmaq lazımdır. Çörəyin gigiyenik qaydalara uyğun satışının həyata keçirilməsinə hər kəs yardımçı olmalıdır. Bu gün çox az adam tapılar ki, mağazada çörəyin gigiyenik qaydalara uyğun satılmamasına etiraz etsin. Muxtar respublikamızın ziyalıları bu sahədə də öncül olmalıdırlar.

Şükürlər olsun ki, bu gün dövlətimizin qüdrəti sayəsində çörək bolluğu yaradılıb. Bizə isə mənəvi borc kimi bolluq-bərəkətin qiymətini anlamaq, qədərsiz çörəyin qədrini bilmək qalır.

**Səbuhi HÜSEYNOV**

### *İtmişdir*

Babək rayonunun Cəhri kənd sakini Novruzov Firəddin Fərman oğlunun adına verilmiş JN-656A inventar nömrəli, 10305018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonunun Şıxmahmud kənd sakini Bayramov Faiq Abbas oğlunun adına olan 103013002746 reyestr nömrəli torpaq sahəsinin çıxarışı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 271